ELMİ İŞ beynəlxalq elmi jurnal. 1.518 Yüksək İmpakt faktorlu. 2021 / Cild: 15 Sayı: 5 ISSN: 2663-4619
SCIENTIFIC WORK international scientific journal. 1.518 With High Impact Factor. 2021 / Volume: 15 Issue: 5 e-ISSN: 2708-986X

DOI: http://www.doi.org/10.36719/2663-4619/66/23-26

**Bəhram Əndəlib oğlu Quluzadə**
Şamaxı Astrofizika Rəsədxanası
fizika üzrə fəlsəfə doktoru
bahram.guluzade@mail.ru
**Gülgəz Sabir qızı Salmanova**
filologiya üzrə fəlsəfə doktoru
Bakı Slavyan Universiteti
gulgez67@mail.ru

# NİZAMİ VƏ ASTRONOMİYA




***Açar sözlər:*** *Kainat, ulduzlar, üsturlab*

**Nizami and astronomy**
**Summary**

The genius poet of Azerbaijan Nizami has created high-grade compositions.

Wherein he relied on numerous sciences. He also used data of astronomy. The united of poetry with the exact sciences created an eternally living literary material. It was been decided at astronomical science of XII century, that all stars have identical properties. Nizami write:

Every stellar is one world.

Only master of Renaissance may say that suggestion.
***Key words:*** *Universe, stellars, astroluby*

Dahi Azərbaycan şairi Nizami əvəzedilməz ədəbi incilər yaradıb. Onun əsərlərində ədəbiyyatın və dəqiq elmlərin əlaqəsi izlənilir. Nizaminin ulduzlar aləmi haqqında ideyaları əsl İntibah baxışı idi.

Tam adı Şeyx Nizaməddin Əbu Mühəmməd İlyas ibn Yusif ibn Zəki Mü'əyyəd Gəncəvi (1141-1209) olan Nizami ən yaxşı romantik (daha dəqiq sufi-romantik (1) Azərbaycan şairi, sonrakı fars romantikası üçün tükənməz təbdil mənbəyi, türkdilli ədəbiyyat nümayəndələrinin ən yüksək dərəcədə sevimli obrazıdır.

Şair "Məxzənül əsrar" – "Sirlər xəzinəsi" poemasının girişində Məhəmməd Peygəmbərin Meracını – Allahın dərgahına yüksəlməsini ulduz elminin mahir bilicisi kimi təsvir edir:

Ostedeyi pişikeşi an səfər
Əz Sərəta tacü, zə Covza kəmər.
Xuşə kədo sunbülü-tər saxtə,
Sünbülərə gər Əsəd əndaxtə (5).
O səfərin hədiyyəsi
Xərçəng bürcündən tac, Əkizlər bürcündən kəmər oldu.
Qız bürcü sütülləşdi,
Sünbülə bürcünü Şir bürcünün üstünə atdı.

"Xosrov və Şirin" poemasında da "Peyğəmbər meracı" fəsli vardır.

Fələkra Qəlb dər Əğrəb dəride,
Əsədra dəst dəst bər Cəbhət kəşide.
Mücərra kəhkəşan pişe-Buraqəş,
Derəxtə Xuşə çu Cövza şitağəş.

Kəmanra ustuxan bər gənce kərde,
Tərazura səadətsənc kərde. (6).
Fələyin Gəlbini Əqrəbdə sökmüş,
Əlini Əsədin cəbhəsinə çəkmişdi.
Büraqının qarşısında Mocərrə saman daşıyan idi.
Cövzanın Sünbülü onun şövqündən dən-dən olmuşdu.
Gövsün sümüyünü xəzinəyə atmış,
Mizanı səadət çəkən eləmişdi.

Əqrəb və Əsəd (Şir) 12 Zodiak bürcündən ikisinin adıdır. Qəlb və Cəbhə isə ulduz adlarıdır. Qəlb Əqrəb bürcünün alfa ulduzudur. Cəbhə Əsəd bürcünün ulduzudur.

Möcərrə kəhkəşanda öz işığı ilə fərglənən ulduz adıdır. Kəhkəşan sözü farsca saman oğrusu deməkdir. Türkcə Saman yolu şəklində işlənməkdədir. Bu, bir əfsanə ilə bağlıdır: guya qonşusunun anbarından gecə araba ilə saman oğurlayıb öz anbarına daşıyan birisi yerə tökülən samanları görüb başa düşür ki, səhər hamı onun oğurluğundan xəbər tutacaq. Yerə yolboyu tökülmüş samanları yığmaqsa mümkünsüz iş idi. Odur ki, ürəkdən peşman olub Allaha dua edir ki, samanlar yoldan-rizdən yığışdırılsln. Allah onun tövbəsini qəbul edib samanları göyə sovurur. Beləliklə, kəhkəşan yaranır. Avropalıların "milky way"-süd yolu söz birləşməsini tərcümə edərək ruslar kəhkəşana «млечный путь» deyirlər. Büraq Məhəmməd peyğəmbərin Meraca getdiyi vaxt mindiyi atın adıdır. Atı da samanla yemləyərlər.

Şair yazırdı:

Rəhm bər madəran dəhr bəste
Ze heyze Doxtəran-nəş rəste.
Ze rifət tace dade Möştərira,
Rabude zAfitab əngöştərira
Ze defi nəsliyane-asimangir
Ze Cebe dadi cövzara yeki Tir (6).

Dünya analarının rəhmini bağlamış,
Nəş qızlarının heyzindən qurtarmışdı.
Yüksəkliyində Yupiterə tac bağlamış,
Günəşdən üzüyünü çəkub almışdı.
Göyü tutan şeytanları uzaglaşdırmaq üçün
Cəbədən Cövzaya bir ox bağışlamışdı.

Bənatün-nəş Böyük Ayı bürcünün ərəbcə adıdır, hərfi mənası "ölünün qızları" deməkdir. Sapılca şəklində düzülmüş bu 7 ulduzu ərəblər atalarının tabutunu aparan ağlayan qızlar şəklində təsəvvür etmişlər. Müştəri səyyarəsinə farslar Bərcis, Qədim türklər Onqay, latındillilər isə Yupiter deyib. Yupiter Günəşlə eyni bürcdə olanda astrologiyaya görə bu, böyük səadətdən xəbər verir. Tir Oxatan bürcünün adıdır. Guranda Hicr surəsinin 17-18-ci, Şüəra surəsinin 212-ci, Şəffat surəsinin 7-10-cu, Cin surəsinin 8-9-cu ayələrində adı çəkilən şeytanlar göyün birinci qatındakı mələklərə qulaq asıb, eşitdiklərini fəlçıya çatdırdığı üçün yanar oxlarla qovulur. Cəbədən Cövzaya bir ox bağışlamışdı sözlərinin mənası həmin ayələrə işarədir. (3).

Nizaminin yaradıcılığında astronomiyaya dair mətləblərin bədii təsvirini vermək, səma cisimlərinin hərəkət xüsusiyyətlərini qələmə almaq təşəbbüsü maraq doğurur.

Eşitmşəm ki, hər ulduz bir aləmdir.
Ayrıca yer və göy qədərdir (6).

-deməklə şair səmada ulduzlar aləminin zəngin, rəngarəng olduğunu, hər ulduzun öz yeri, öz xassəsi olduğunu bildirir. XII əsrin nücum elmində "səmada ulduzların hamısı eynidir" təsəvvürünün əksinə olaraq belə dərin elmi fikir söyləmək yalnız dərin astronomik məlumatlar əsasında mümkün ola bilərdi. Daha doğrusu, bunu İntibah sənətkarı deyə bilərdi.

Nizami yazır:

O vaxt ki mən qapını bağlamışdım,
Göylərdən sözə başlamışdım,
Gah mələklərin bürcünü kəsirdim,
Gah da ulduzların örtüyünü cırırdım (7).

Bu misralardan aydın olur ki, Nizami öz hücrəsinə çəkilərək səma cisimlərini müşahidə edən, onların sirrlərini öyrənməyə çalışan bir sənətkar olub (2)

Orta əsrlər Şərgində ən geniş yayılan astronomik alət üstürlab-astrolobiya olub. Müxtəlif növ üsturlablar olub: xətti, müstəvi, universal, sferik və s.

Biri 10 dənə arpanı mehrab edib,
Biri 2 daşı üsturlab edibdir (6(.

Burada Nizami üz və əks tərəfi dairə olan sadə, müstəvi astrolyabiyadan danışır (2). Bu astrolyabiya dərəcələrə bölünmüş çevrədən və onun mərkəzinə birləşdirilmiş əlidadadan-iki diaptrallı fırlanan xətkeşdən ibarətdir. Diaptrallar sadə bir borudur. Bu borunun içərisi boş olub, uclarında diametri boyunca tel asılmış və bunun garşısında duran ucda isə yarıq açılmışdır. Müşahidəçi səma cisminin yüksəkliyini ölçmək istədikdə onu, diaptralları, diaptralların yarığını və telini bir xəttə gətirir, beləliklə, diaptralların şkala üzərindəki vəziyyətinə görə nur saçan səma cisminin yüksəkliyini hesablayır.

Orta əsrlərdə təbiət hadisələrini anlamaq üçün başcıl amil ulduzlu səmanın müşahidələrinin elmi ümumiləşdirmələrlə birləşdirilməsi idi. Nizami qürurla deyirdi:

Bütün fələk ziccini cədvəl-cədvəl
Təfəkkür üsturlabı ilə açmışam (7).



Quranda Sira ulduzundan başqa heç bir ulduzun adı çəkilmir. Bu ad Nəcm surəsinin 49-cu ayəsindədir. Ayədə deyilir:

Və ənnəha huvə Rəbbüş-Şira.
Və odur Şira ulduzunu yaradan!

Ayəni təfsir edərkən Məhəmmədkərim Ələvi Bakuvi yazırdı:"Şira ulduzu Cövzanın dalınca tülu edər. Şiradan başqa ona Kəlbül-cabbar (Zalım it) də deyirlər. Şira yıldızı ikidir. Biri – Əl Gəmişa, digəri Ələburdur, hansı ki, xəzaə cəmaəti ona sitayiş edərdilər. Şirayə sitayiş etməyi Xəzaə cəmaətinin rəislərindən Əbu Kəbsə adlı bir şəxs onlardan ötrü əhadis etdi. Ərəb cəmaətinin hamısı bütpərəst idilər.

Həman Əbu Kəbsə onlardan aralanıb Şira ulduzuna sitayiş eylədi. Qureyş camaatı Rəsuli-Xudanı dini-cədid gətirdikdə Əbu Kəbsəyə müqabil tutub İbn Əbu Kəbsə - Əbu Kəbsənin oğlu deyirdilər" (4).

Türk astronomları Şira ulduzunu Quruq adlandırırlar. El içində yayın yarı olmasını bu ulduzun görünməsi ilə təyin edirlər. Buradan Quruq sözü təhrif olunaraq "quyruq doğdu" ifadəsi yaranıb. Yay yarı olanda bu ulduz sübh vaxtı Günəşdən öncə görünməyə başlayır. Ulduz çox parlaq olduğu üçün üstü qıllı bir kürəyə bənzəyir. Yeri gəlmişkən, Şira sözü ərəbcə elə "tüklü" deməkdr.

Məxzənül-Əsrarda Nizami Şira ulduzuna eyhamla yüksək bədii deyim nümunəsi yaradıb. "Dər səbəbe nəzme-kitab fərmayəd" (Kitabın yaranma səbəbi haqqında buyurur) bəhsində aşağıdakı beytlər var:

Ba fələk an şəb ke neşini bexan,
Pişe men əfkən ğədəri-üstüxan.
Kaxere –laf səgiyət mizənəm,
Dəbdəbeye-bəndəgiyət mizənəm (5).

O gecə ki fələklə bir süfrədə oturmusan,
Bir gədər kababdan mənimçün endir.
Sözümün axırındasənin Köpəkliyindən danışıram,
Bəndə olmağının dəbdəbəsindən danışıram.

Beytlər Ərzincan hakimi Bəhram şaha müraciətlə deyilmişdi. Mars planetinə farsca Bəhram deyirlər. Planetlər Qoç, Buğa, Oğlaq bürcləri ilə bir məqamda qərar tuta bilər. Bürc adlarından başqa, ətindən kabab çəkilən heyvanlar kimi tanındıqları üçün ənənə üzrə şairlər süfrəni səmaya bənzədirlər. Adı çəkilən bürcləri təşkil edən ulduzlar kabab tikələrinə bənzədilir.

Bəhram – od ünsürlü səyyarədir. Mətbəx astrologiyasında od üzərində bişirilən kabab və qovurmanı rəmzləşdirir. Qurmanlar tikə kababla müqayisədə ləzzətinə görə sümüklü bişmişə üstünlük verir. Şair göy məclisindən sümüklü kabab istəməklə əsərinin müqabilində ədalətlə gələmiyyə (qonorar) istəyir.

"Səg" – köpək sözünə gəlincə isə, mətləb "Kəlb əl əkbər" – Böyük Ayı bürcünün ən parlaq ulduzu olan Şira – Sirius ulduzu barədədir. Şair burada bədii figur olan istifhamdan bacarıgla istifadə edərək, böyük sənət möcüzəsi yaradır. Bir yandan şaha (böyük) Köpək deyir, ikinci tərəfdən, onun bir dəbdəbəli bəndə olduğuna rişxənd edir. Yəni, lap dəbdəbənlə fələyə ucalsan belə, sənə təzim edilsə də, yenə bir Allah bəndəsisən. Nizami burada həm də dünya malını murdar leşə, ona meyl edənləri isə köpəyə bənzədən Peyğəmbər hədisinə gizli işarə edir

Dahi Nizaminin Kainatın sirrlərinə yaxından bələdliyi ulduz biliciləri yüksək səviyyədə dəyərləndirmişlər: Merkuri planetindəki kraterlərin biri indi Nizami Gəncəvi krateri adlanır.

Nizaminin ulduzlar aləmi üzrə arzu və xəyallarını onun ondan sonra gələn həmyerliləri gerçəkləşdirmişlər. XIII əsr dünya elminin ən böyük nümayəndəsi Mühəmməd Nəsirəddin Tusinin yarardığı və uzun illər boyu rəhbərlik etdiyi Marağa Rəsədxanası sözün əsl mənasında beynəlxalq elm mərkəzi idi. Burada bir çox xalgların nümayəndələri: türklər, ərəblər, farslar, çinlilər...əl-ələ verib Kainatın sirrlərini açırdılar.

1960-cı ildə yaradılan Şamaxı Astrofizika Rəsədxanası məhz Nəsirəddin Tusinin adını daşıyır. Bu elm məbədində adı Marsdakı kraterlərin birinə əbədi həkk olunmuş Nadir İbrahimov, eləcə də Rəhim Hüseynov, Zakir Seyidov, Dmitri Şestopalov və s. kimi elm nəhəngləri yaşayıb-yaratmışlar.

Fələk ziccini təfəkkür üstürlabı ilə açan dahi şairimiz, əlbəttə ki, öz qədr-qiymətini
yaxşı bilirdi:

Gizlədib özünü verməzmi nişan
Sizə hər sətrində bir sirr danışan!?
Əgər soruşsaz ki, şair hardadır?
Hər beyti səslənər:burda, burdadır!!!



## References


1. A.K. Krymsky. Nizami and his contemporaries. Baku, ELM, 1981.
2. Bahram Guluzade, Gulgaz Salmanova, Aynura Masimova. Nizami and science. Philological issues j. 2017, №11.
3. 3.Firudin Qurbansoy. Medieval Azerbaijani literature and astronomy. Collection of medieval Azerbaijani literature. Baku, "ELM", 2016.
4. M.A. Bakuvi. Kitabu-kashful-haqayiq. III, Baku, 1904.
5. Nizami. Makhzanul-asrar. ("The Treasury of Mysteries).
6. Nizami. Khosrov and Shirin.
7. Nizami. Iskendername.


Göndərilib: 10.04.2021 Qəbul edilib: 16.04.2021